**Yeni Azərbaycan.**-2023.-11 fevral.-№26.-S.2.

# Şuşa Türk dünyasının - mədəniyyət paytaxtı kimi...

## Tədbirlər Planı təsdiq edilib

## Bu il Susada...

**Günel Abbas**

Bütün dünya Qarabağda reallaşan nəhəng regional layihələrin icrasını heyranlıqla izləyir. Bu gün yaşananlar Azərbaycanın yazdığı yeni tarixin növbəti qızıl səhifəsidir. Qarabağın yenidən qurulması, inkişafı istiqamətində mütəmadi qərarlar verilir. Bununla yanaşı, işğaldan azad olunmuş ərazilərin xüsusilə Şuşanın mədəniyyətinin dünya səviyyəsində tanıdılması istiqamətində mütərəqqi addımlar atılır.

Fevralın 9-da Baş nazir Əli Əsədov "Şuşa şəhərinin 2023-cü il üçün "Türk dünyasının mədəniyyət paytaxtı" elan edilməsi ilə bağlı Tədbirlər Planı"nın təsdiq edilməsi haqqında sərəncam imzalayıb. Sərəncama əsasən, Tədbirlər Planında nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsi üzrə əlaqələndirici orqan Mədəniyyət Nazirliyi müəyyən edilib. Tədbirlər Planında nəzərdə tutulmuş tədbirlər Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsində aidiyyəti icraçı qurumlar üçün ayrılmış vəsaitlər və qanunvericiliklə qadağan edilməyən digər mənbələr hesabına maliyyələşdiriləcək.

### Şuşada I Türk Dünyası Mədəniyyət Forumu təşkil olunacaq

Bu il may-iyun aylarında Şuşada Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş I Türk Dünyası Mədəniyyət Forumu təşkil ediləcək. Forum çərçivəsində Beynəlxalq Türk Akademiyası ilə birgə türk dünyasında ortaq mədəni irsin, tarix-memarlıq abidələrinin qorunması, bərpası və tanıdılmasına həsr olunmuş tədbir, TÜRKSOY-a üzv ölkələrin UNESCO Milli Komissiyalarının 9-cu Toplantısı, Türk Dünyasının Mədəni Marşrutu layihəsinin təqdimatı, TÜRKSOY Muzeylər Birliyinin toplantısı və digər tədbirlər keçiriləcək. Mədəniyyət Nazirliyi, Heydər Əliyev Mərkəzi, Elm və Təhsil Nazirliyi, Xarici İşlər Nazirliyi, Dövlət Turizm Agentliyi, Azərbaycan Milli Elmlər Akademiyası, Əqli Mülkiyyət Agentliyi, Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəliyi və Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinə tədbirlərin təşkili həvalə edilib.

### "Xarıbülbül" Festivalının keçiriləcəyi tarix məlum olub

"Xarıbülbül" VI Beynəlxalq Folklor Festivalının keçiriləcəyi tarix məlum olub. Festival bu ilin mayında keçiriləcək. Festivalın təşkili Mədəniyyət Nazirliyi, Xarici İşlər Nazirliyi, Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəliyi və Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinə tapşırılıb.

### "Xarıbülbül əfsanəsi" filmi təqdim ediləcək

"Xarıbülbül əfsanəsi" sənədli filmi təqdim ediləcək. Tədbirlər Planına əsasən, 2023-cü il ərzində Azərbaycan Milli Elmlər Akademiyası, Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi, Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi, Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi, Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəliyi tərəfindən "Xarıbülbül əfsanəsi" sənədli filminin təqdimatı keçiriləcək.

### "Şuşa - Türk dünyasının mədəniyyət paytaxtı 2023" ilinin açılış və bağlanış mərasimləri

"Şuşa - Türk dünyasının mədəniyyət paytaxtı 2023" ilinin rəsmi açılışı mərasiminin vaxtı məlum olub. Rəsmi açılış bu ilin mart ayında olacaq. Bağlanış mərasiminin isə noyabr-dekabr aylarında olacağı nəzərdə tutulub.

### Şuşayla əlaqədar xatirə nişanı hazırlanacaq

"Şuşa - Türk dünyasının mədəniyyət paytaxtı 2023" ili ilə əlaqədar poçt markaları və xatirə nişanı hazırlanacaq. Tədbirlər Planına əsasən, "Şuşa - Türk dünyasının mədəniyyət paytaxtı" ili ilə bağlı internet resursları və xatirə materialları hazırlanacaq.

**Vaqif poeziya günlərinin keçiriləcəyi tarix məlum olub**

Vaqif poeziya günlərinin keçiriləcəyi tarix məlum olub. Poeziya günləri bu ilin iyul-sentyabr aylarında keçiriləcək.

**Şuşa şəhərinin elektron xəritəsi və mobil tətbiqi hazırlanacaq**

Bu il ərzində Şuşa şəhərinin elektron xəritəsi və mobil tətbiqi hazırlanacaq. “Türk dünyasının mədəniyyət paytaxtı - Şuşa” portalı da yaradılacaq. İcraçı orqanlar Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Mədəniyyət Nazirliyi, Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsidir. Şuşada Əhməd bəy Ağaoğlu ilə bağlı beynəlxalq konfrans keçiriləcək

Şuşada “Əhməd bəy Ağaoğlu və Türk dünyası” mövzusunda beynəlxalq konfrans keçiriləcək. Bundan başqa “Şuşa - Türk dünyasının mədəniyyət paytaxtı” ili çərçivəsində “Türk dünyası: ortaq tarixi-mədəni dəyərlər, müasir reallıqlar və gələcəyə baxış” mövzusunda beynəlxalq konfransın, “Şuşa Türk dünyası tarixində” mövzusunda beynəlxalq konfrans, “Orta əsr mənbələrində və müasir dövr tədqiqatlarında Qarabağ və Şuşa” mövzusunda elmi seminarın keçirilməsi nəzərdə tutulub.

**Türk dünyası mədəniyyət paytaxtlarının Şuşa şəbəkəsi yaradılacaq**

Türk dünyası mədəniyyət paytaxtlarının Şuşa şəbəkəsi yaradılacaq. Tədbirlər Planına əsasən, Mədəniyyət Nazirliyi, Heydər Əliyev Mərkəzi, Elm və Təhsil Nazirliyi, Xarici İşlər Nazirliyi, Dövlət Turizm Agentliyi, Azərbaycan Milli Elmlər Akademiyası, Əqli Mülkiyyət Agentliyi, Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəliyi və Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi 2023-cü il may-iyun aylarında Türk dünyası mədəniyyət paytaxtlarının Şuşa şəbəkəsinin yaradılması və ilk görüşünün keçirilməsini təmin etməlidir.